## Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat–GUAM

Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat-GUAM Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası və Ukrayna tərəfindən 2006-cı il 23 may tarixində təsis edilmiş beynəlxalq regional təşkilatdır. İlk öncə GUAM Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası və Ukrayna Prezidentlərinin 10 oktyabr 1997-ci ildə Strasburqda Birgə Kommünike imzalamaqla bu dörd dövlətlərin birliyi kimi fəaliyyətə başlayıb. Kommünikedə Prezidentlər tərəfindən suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, demokratiya, hüququn aliliyi və insan hüquqlarına hörmət prinsipləri əsasında Avropada sabitliyin və təhlükəsizliyin gücləndirilməsi məqsədilə dördtərəfli əməkdaşlığın inkişaf elətdirilməsinin vacibliyi vurğulanıb.

Təşkilatın əsas məqsədləri qanunun aliliyinin və insan hüquqlarının, davamlı inkişafın təmin olunması, ümumi təhlükəsizlik mühitinin yaradılması üçün Avropaya inteqrasiyanın dərinləşməsi, həmçinin iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsidir.

Azərbaycan 2015-ci ildə təşkilatın Energetika məsələləri üzrə əlaqələndiricisi funksiyasını yerinə yetirib.